# Postmünaqişə dövründə qarşıya qoyulan vəzifələr uğurla yerinə yetirilir

***Prezident İlham Əliyev cari ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə hesabat dövründə görülən işləri təhlil edərkən, ötən üç ayın sosial-iqtisadi yekunlarını yüksək qiymətləndirdi, ölkəmizin bütün sahələrdə uğurlu inkişafınının davamlı xarakter aldığını vurğuladı. Ölkə rəhbəri, eyni zamanda, Vətən müharibəsindən sonra düşməndən təmizlənən ərazilərdə bərpa-quruculuq layihələrinin icrasında müsbət nəticələr gerçəkləşdirildiyini, beynəlxalq müstəvidə yeni reallıqların qəbulu üçün önəmli addımlar atıldığını bildirdi.***



Bu fikrin konkret göstəricilərlə təsdiqi üçün qeyd edək ki, birinci rübdə ümumi daxili məhsul 6,8 faiz, qeyri-neft iqtisadiyyatı 10 faizdən çox artıb. Sənaye istehsalı sahəsində artım, təxminən, 4 faiz, qeyri-neft sənaye istehsalında 18 faizdən çox olub. Bu, əsasən iqtisadiyyatın şaxələndirilməsi, neft-qaz sektorundan asılılığın azaldılması nəticəsində reallaşıb. Xarici ticarət dövriyyəsi 60 faizdən çox, qeyri-neft ixracı 45 faiz artıb. Xarici dövlət borcu 600 milyon dollardan çox aşağı salınaraq, 12,5 faiz həddinə çatdırılıb.

Bütün bunlar göstərir ki, müstəqil Azərbaycan bu gün sosial-iqtisadi, siyasi və mədəni inkişafının yeni mərhələsini yaşayır. Ölkədə milli iqtisadiyyatın güclənməsini və müasirləşməsini təmin etmək məqsədilə məqsədyönlü sosial-iqtisadi islahatlar həyata keçirilir. Bunun nəticəsində iqtisadiyyatın həcmi getdikcə böyüyür, infrastruktur yenilənir və güclənir, pozitiv demoqrafik artım şəraitində yoxsulluq səviyyəsi əhəmiyyətli dərəcədə azalır, maliyyə imkanları genişlənir və nəhayət, Azərbaycan yuxarı orta gəlirli dövlətlər qrupunda möhkəmlənir.

Son illərdə artan iqtisadi güc isə Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir böyük layihələrin təşəbbüskarı olmaq imkanı verib. Ölkə regional iqtisadiyyatın lokomotivi olaraq dünyanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından birinə çevrilib. Bütün bunlar Azərbaycanın regionda iqtisadi rolunu yüksəldib, xarici təsirlərə davamlı olmasına və müstəqil dövlət kimi suverenliyinin güclənməsinə möhkəm zəmin yaradıb.

**(ardı 4-cü səhifədə)**

# Postmünaqişə dövründə qarşıya qoyulan vəzifələr uğurla yerinə yetirilir

*(əvvəli 1-ci səhifədə)*

## Azərbaycan dünyada xarici borcun aşağı səviyyəsinə görə qabaqcıl yerdə qərarlaşıb

Azərbaycan Prezidentinin müşavirədə toxunduğu məsələlərdən biri də ölkəmizin xarici dövlət borcunun azaldılmasının dinamik xarakter alması ilə bağlı idi. Dövlətimizin başçısı çıxışında bu barədə dedi: "Xarici dövlət borcunun azaldılması ilə bağlı strategiya var və uğurla icra edilir. 12,5 faiz o rəqəmdir ki, hər bir ölkə bu rəqəmlə fəxr edə bilər. Amma bilirsiniz, mən bir neçə il bundan əvvəl vəzifə qoymuşdum ki, xarici dövlət borcumuz ümumi daxili məhsulumuzun 10 faizindən çox olmasın. Yəni, biz buna yaxınlaşırıq...".

Yeri gəlmişkən, qeyd edək ki, 2018-ci il avqustun 24-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Həmin strategiyanın əsas məqsədi qlobal iqtisadiyyatda, habelə maliyyə bazarında baş verən proseslər fonunda ölkənin maliyyə dayanıqlılığının daha da gücləndirilməsinə, dövlət borcalmalarında səmərəliliyin artırılmasına, qarşıda duran yeni çağırışlar və imkanlar nəzərə alınmaqla bu sahədə risklərin səmərəli idarə edilməsi, eyni zamanda, nəzarət mexanizminin təkmilləşdirilməsinə nail olmaqdır.

Sənəd ortamüddətli və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək dövlət borcalmaları sahəsində yeni strategiya və tədbirlər planından, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışdan ibarətdir. Strategiyada müəyyənləşdirilən vəzifələri reallaşdırmaq üçün 3 strateji məqsədin və 5 prioritet tədbirin həyata keçirilməsi nəzərdə tutulub.

Strategiyada əsas məqsəd kimi həm ortamüddətli, həm də uzunmüddətli dövrdə ölkə iqtisadiyyatının ehtiyaclarını nəzərə almaqla dövlət borcunun dayanıqlığını təmin etmək planlaşdırılır. Bunun üçün 2018-2025-ci illər üzrə ümumi dövlət borcunun ÜDM-ə nisbətinin yuxarı həddinin 30 faizdən çox olmaması və 2025-ci ilədək 20 faizdən aşağı salınması hədəfi qərarlaşdırılıb.

Qeyd olunanlarla yanaşı, dövlət borcu üzrə qanunvericiliyin təkmilləşdirilməsi, dövlətə məxsus olan hüquqi şəxslərin dövlət zəmanəti olmadan cəlb edilən daxili və xarici borclarının uçotunun Maliyyə Nazirliyi tərəfindən aparılması və daxili institusional və maddi-texniki bazanın gücləndirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi də sözügedən strategiyada öz əksini tapıb.

## Məqsəd Qarabağı sülh və abadlıq məkanına çevirməkdir

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa-quruculuq layihələrinin həyata keçirilməsində son bir ildə mühüm uğurlar əldə edilib. Bu məsələdə ərazilərin minalardan təmizlənməsinə xüsusi diqqətlə yanaşılıb. Bunun üçün təkcə cari ilin mart ayında 203 hektar ərazi mina və partlamamış döyüş sursatlarından tam təmizlənib. Ümumiyyətlə, bugünədək yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərini əhatə edən 14600 hektaradək ərazidə bu proses başa çatdırılıb. Qısa müddətdə Füzuli Beynəlxalq Hava Limanı inşa olunub, Zəngilan və Laçın rayonlarında da aeroportların tikintisinə başlanılıb.

Ötən bir ildə yol infrastrukturunun qurulmasına da böyük əhəmiyyət verilib, bu istiqamətdə qısa zaman ərzində genişhəcmli layihələr gerçəkləşdirilib. Göygöl-Toğanalı-Kəlbəcər yolunda olacaq 11,6 kilometrlik tunelin tikintisi çərçivəsində 25 faiz işlər artıq yerinə yetirilib. Bu tunelin inşasının başa çatdırılması 2024-cü ilin sonunadək nəzərdə tutulub. Bundan əlavə, 6-4 hərəkət zolaqlı Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi çərçivəsində işlərin 70 faizi yerinə yetirilib. Yolun tikintisinin 2023-cü ilin sonunadək bitəcəyi planlaşdırılıb.

Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 16 yol layihəsi yerinə yetirilir və rayondaxili yolların tikintisi aparılır, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan ərazilərində 780 kilometr uzunluğunda daxili yolların inşası sürətlə davam etdirilir. Yol tikintisi ilə bərabər, dəmiryolu xətlərinin salınması da uğurla reallaşdırılır. Bərdə-Ağdam (47,1 kilometr) və Horadiz-Ağbənd dəmir yolu xətlərinin (110,4 kilometr) tikintisi sürətlə aparılır.

Qeyd edilənlərlə yanaşı, Qarabağ və Şərqi Zəngəzurda artıq bir neçə su-elektrik stansiyası inşa edilərək, işə salınıb. Günəş, eləcə də külək stansiyalarının yaradılması ilə bağlı konkret planların da ardıcıllıqla həyata keçirilməsi diqqət mərkəzində saxlanılıb. Məsələn, bp şirkəti ilə imzalanmış icra müqaviləsinə əsasən, Cəbrayıl rayonunda 240 meqavat gücündə günəş-elektrik stansiyasının tikilməsi qərara alınıb.

Xatırladaq ki, sözügedən "yaşıl enerji" zonası 10 min kvadratkilometr ərazini əhatə edir. Bura daxil olan bölgələr 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Ölkəmizin daxili su ehtiyatlarının isə təxminən 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri bu ərazilərdə formalaşır. Günəş enerjisi potensialı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıda, külək enerjisi potensialı isə Laçın və Kəlbəcərin dağlıq ərazilərində müşahidə olunur. Aparılan təhlilə əsasən, işğaldan azad edilmiş ərazilərdə bütövlükdə 10 min meqavata yaxın bərpaolunan külək və günəş-elektrik enerjisinin istehsalı mümkündür. Regionun Tərtərçay, Bazarçay, Həkəriçay kimi əsas çaylarının və digər kiçik çayların da böyük hidroenerji potensialı var. Həmçinin ilkin təhlillərə əsasən, Kəlbəcərdə günlük 3093 kubmetr, Şuşada isə günlük 412 kubmetr termal su ehtiyatlarının mövcud olması ehtimal edilir.

Siyasi müstəvidə də qarşıda duran bütün vəzifələr yerinə yetirilib. İlk növbədə, beynəlxalq təşkilatlarla təmaslar, fəal əməkdaşlıq davam etdirilib və dünyanın aparıcı beynəlxalq təşkilatları tərəfindən yeni reallıqlar qəbul olunub. BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı və digər nüfuzlu beynəlxalq təsisatlarla münasibətlər daha da möhkəmlənib.

## Azərbaycan Qarabağı öz gücü ilə dirçəldir

Dövlətimizin başçısı müşavirədə Qarabağ və ətraf rayonlarda aparılan bərpa-quruculuq tədbirləri ilə bağlı diqqətçəkən bir məqama da toxundu. Ölkə rəhbəri nitqində işğaldan azad edilən ərazilərdə tikinti işlərinin ancaq Azərbaycanın daxili imkanlar hesabına gördüyünü, heç kimdən bir manat belə dəstək almadığını qeyd etdi: " Azad edilmiş torpaqları da yüz faiz öz gücümüzə bərpa edirik. Bəli, xarici şirkətləri dəvət etmişik. Onlar orada podratçı kimi işləyir. Amma bu günə qədər heç kimdən bir manat almamışıq. Ancaq öz gücümüzə, öz istedadımıza güvənirik. Bunu mən xüsusilə qeyd etmək istəyirəm. Çünki adətən belə qanlı müharibələrdən, belə dağıntılardan sonra, - Qarabağ və Zəngəzurda dağıntıların dünyada bənzəri yoxdur, heç İkinci Dünya müharibəsində bu qədər dağıntılar olmamışdı, - donor konfransları, beynəlxalq təşkilatlar yığışır və bərpa planı icra edilir. İndi yenə də İkinci Dünya müharibəsinin tarixçəsinə nəzər salmaq kifayətdir. O vaxt Marşal planı tətbiq edilmişdir. Əgər Amerika Avropanı bərpa etmək üçün bu planı tətbiq etməsəydi, Avropa öz gücünə öz potensialını bəlkə də 50 ilə bərpa edə bilərdi. Digər münaqişələrlə bağlı beynəlxalq fondlar maliyyə yardımı göstərirlər. Bizə isə heç kim heç bir yardım göstərmir, nə işğal dövründə, nə də sonra...".

Bu məsələdə nəzərə çarpan ədalətsizlik, haqsızlıq İkinci Qarabağ müharibəsindən əvvəl də nəzərə çarpıb. Azərbaycan Prezidentinin müşavirədə vurğuladığı kimi, o zaman, hətta ölkələrin əksəriyyəti erməni qəsbkarlığını işğal kimi adlandırmaq istəmirdi. Azərbaycan işğal dövründə beynəlxalq təşkilatlarda ikitərəfli formatda aparılan danışıqlar əsnasında ölkəmizin ərazi bütövlüyü prinsipininin pozulması, Ermənistanın torpaqlarımızı işğal altında saxlaması faktlarının bəyannamələrdə öz ifadəsini tapmaq üçün müəyyən çətinliklərlə üzləşirdi: "Halbuki gün kimi aydın idi, kim işğalçıdır, kim işğala məruz qalan ölkədir. İkili standartlar, ədalətsizlik, bax, budur. Biz bunu bu gün də görürük, Rusiya-Ukrayna müharibəsində görürük. Vaxtilə biz torpaqlarımızı işğaldan azad edəndə və məşhur "Bayraktar" dronlardan istifadə edəndə xarici ekspertlər və mətbuat bunu ölüm silahı kimi qələmə verirdi. İndi isə Rusiya-Ukrayna müharibəsində bunu mələk adlandırırlar. Fərq budur, ikili standartlar budur, bizə qarşı ədalətsizlik budur. Bu, reallıqdır...".

Prezident İlham Əliyev müşavirədə Azərbaycanın düşməndən təmizlənən bütün yaşayış sahələrinin, o cümlədən Ağdamın ermənilər tərəfindən yerlə-yeksan edildiyini, bu şəhərin Qafqazın Xirosimasına çevrildiyini xatırladaraq, beynəlxalq təşkilatlar, böyük fondlar və xeyriyyəçiliklə məşğul olan beynəlxalq qeyri-hökumət təsisatlarının diqqətini bu barbarlığın aradan qaldırılmasına yönəltdi. Həmin qurumları ədalətsizliklə barışmamağa, bərpa-quruculuq işlərinə dəstək olmağa dəvət etdi: "Yardım göstərmək istəmirlərsə, desinlər ki, biz sizə yardım etməyəcəyik. Biz də işimizi bilək. Yəni, müharibədən təxminən bir il yarım keçibdir. Bir fond belə bizə heç bir yardım göstərməyib. Minaların təmizlənməsi ilə bağlı – müharibədən sonra 200-dən çox insan ya həlak olub, ya da ki, ağır yaralanıb. Dünyada bu məsələ ilə məşğul olan o qədər fondlar var, QHT-lər var. Nə ilə məşğuldurlar? Gəlsinlər, kömək göstərsinlər. Bizim fiziki cəhətdən gücümüz çatmır. Biz nə lazımdırsa, almışıq. Maşın, mexanizm almışıq, texnika almışıq, hətta dronlar almışıq ki, o minalarla çirklənmiş yerləri təsbit edir. Ancaq bizdə mütəxəssis çatışmır, bizdə işçi qüvvə çatışmır. Ona görə, heç olmasa, bu sahədə bizə kömək göstərsinlər. Yenə də deyirəm, biz onsuz da öz gücümüzlə hər şeyi bərpa edəcəyik...".

## Qarşıda duran vəzifələr

Prezident İlham Əliyev müşavirədə müvafiq strukturlar qarşısına bir sıra mühüm vəzifələr də qoydu:

***–Azərbaycanın xarici borcu ümumi daxili məhsula nisbətdə 10 faiz səviyyəsinə endirilməlidir;***

***–Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı – Azərbaycan dünyanın bu əsas maliyyə qurumları ilə işləməlidir. Bu strategiya vaxtaşırı təftiş olunmalıdır;***

***–hazırda dünyada ərzaq məhsullarının qiymətləri kəskin artır. Rusiya və Ukrayna dünyada aparıcı taxıl ixracatçıları olduqlarına və məlum səbəbə görə, artıq təbii qıtlıq hiss olunur. Bu səbəbdən ərzaqlıq buğda və digər məhsullarla bağlı daxili təminat artırılmalıdır. Həm azad edilmiş torpaqlarda, həm də digər bölgələrdə əkin işlərinin daha genişmiqyaslı aparılmalıdır;***

***–antiinflyasiya tədbirlərinin gücləndirilməsi zəruridir. Süni qiymət artımına yol verilməməlidir.***

Ümumiyyətlə, cari il ərzində ölkənin dayanıqlı inkişafı, iqtisadiyyatın şaxələndirilməsi, onun rəqabət qabiliyyətinin artırılması, makroiqtisadi və maliyyə sabitliyinin qorunması, fiskal dayanıqlığın təmin edilməsi, xərclərin optimallaşdırılması və qənaət rejimində istifadəsi, biznes mühitinin yaxşılaşdırılması, struktur dəyişikliklərinin sürətləndirilməsi prioritet istiqamətlər kimi qəbul olunub. Eyni zamanda, antiinhisar siyasətinin, həmçinin daxili bazarda qiymət manipulyasiyası üzərində nəzarətin gücləndirilməsi, qlobal ərzaq bazarlarında bahalaşmanın ölkənin ərzaq təminatına mənfi təsirinin qarşısının alınması, ərzaq təhlükəsizliyinin təmini, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi kimi məsələlərə xüsusi önəm verilməsi nəzərdə tutulub.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 15 aprel.- S.1;4.